# Zahid ƏZİZ-60



Hörmətli Zahid müəllim!

Sizi - istedadlı şairi 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1963-cü il iyulun 5-də Qərbi Azərbaycanın Amasiya rayonunun Ellərkənd kəndində anadan olmusunuz. Orta məktəbi Güllücə kəndində bitirmiş, Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsil almısınız. Jurnalistika üzrə xüsusi kursda ixtisaslaşmısınız. Əmək fəaliyyətinə 1985-ci ildə orta məktəbdə müəllim kimi başlamış, eyni zamanda şeirləriniz və publisistik yazılarınız dövri mətbuatda müntəzəm dərc edilmişdir. Amasiya rayonundakı "Ağbaba ədəbi birliyinin" üzvü olmusunuz. Ədəbi yaradıcılığa erkən başlamış, ilk şeiriniz Amasiya rayonunda çıxan "Əmək" (1981) və ADPU-da nəşr olunan "Gənc müəllim" qəzetlərində işıq üzü görmüşdür. Şeirləriniz "Ədəbiyat qəzeti"ndə, "Azərbaycan", "Ulduz" və digər mətbu orqanlarda vaxtaşırı dərc olunub. "Könlüm səni istəyir", "Dünyadan qaçmağım gəlir", "Çıxmışıq Tanrı yanına", "Qəm yüküyəm bu dünyanın", "Sevgi məktubları", "Gözlərim yol çəkir", "Mənim yazdıqlarım", "Altmış yaşın 60 duası" və s. kitablarınız ədəbi ictimaiyyətə təqdim olunmuşdur. Bir sıra publisistik yazıların və mahnı sözlərinin müəllifisiniz.

1992-ci ilin mart ayından etibarən Bakı şəhərində dövlət qulluqçusu kimi əmək fəaliyyətini davam etdirirsiniz. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 27 iyun 2013-cü il tarixli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmusunuz. "Simurq" milli mükafat fondunun təsis etdiyi ilin şairi və "İlin müəllifi" nominasiyalarının qalibi olmusunuz. 2013-cü ildə "Avropa Nəşr Mətbu evi" tərəfindən ən yaxşı vətənpərvər şair kimi qızıl medala, 2020-ci ildə "Vətənpərvərlik işində xidmətlərinə görə", 2023-cü ildə "Fədai" medallarına, bir neçə fəxri fərman və diplomlara layiq görülmüsünüz.

Hörmətli Zahid müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun, sağlam ömür, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**